# Mübariz ruhun simvolu

***Tarix boyu "böyük Ermənistan" xülyasını gerçəkləşdirmək naminə Azərbaycan torpaqlarına göz dikən ermənilər xalqımıza saysız-hesabsız faciələr yaşatmış, məkrli planlarını reallaşdırmaq üçün amansız vasitələrə əl atmışlar. XX əsrin sonlarına yaxın, 1988-ci ildən etibarən faşizm ideologiyasına bürünən ermənilərin bu siyasəti amansızlıqla davam etdirildi. Ermənistan xaricdəki havadarlarının dəstəyi ilə Qarabağ və ətrafındakı yeddi rayonu işğal etdilər, minlərlə dinc azərbaycanlını qətlə yetirdilər. Ermənistanın çirkin niyyəti təkcə torpaq işğalı ilə bitmirdi. Onlar azərbaycanlıları bir millət kimi Yer üzündən silmək, soyqırımı törətmək niyyətində idilər. Ermənilər 1988-1994-cü illər arasında insanlıq tarixində silinməz qara iz buraxan faciələrə səbəb oldular. Lakin bu faciələrin içində biri var ki, təkcə Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin vicdanında sağalmaz yaraya çevrilib. Bu Xocalı soyqırımıdır.***




1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə Xocalı şəhərinə hücum etdilər. Gecənin qaranlığında günahsız insanlar ölüm-qalım mübarizəsinə başladılar. Hər tərəf qana boyanmışdı. Qoca, qadın, uşaq demədən amansızlıqla qətlə yetirilən 613 nəfərin içində 63 uşaq, 106 qadın, 70 qoca var idi. 1275 nəfər girov götürüldü, onların bir çoxu işgəncələrə məruz qaldı. Ən dəhşətlisi isə bu qırğın qeyri-insani üsullarla törədilmişdi. İnsanların başlarının dərisi soyulmuş, gözləri çıxarılmış, bədən üzvləri doğranmışdı. Uşaqlar, hamilə qadınlar xüsusi qəddarlıqla öldürülmüşdü. Xocalı qurbanlarının nəinki həyatı, hətta meyitləri belə təhqir olunmuşdu. Bu, sadəcə bir faciə deyildi, bu, bir millətin varlığına qarşı yönəlmiş məqsədyönlü soyqırımı idi.

Bu vəhşiliyin unudulmaması, şəhidlərin ruhunun daim anılması üçün ulu öndər Heydər Əliyev hələ 1994-cü ildə mühüm bir addım atdı. Onun təşəbbüsü ilə fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. Lakin bu, təkcə bir qərar deyildi, bu, Xocalı həqiqətlərinin gələcək nəsillərə, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması deməkdir. Heydər Əliyevin 25 fevral 1997-ci il tarixli Sərəncamı isə Xocalı şəhidlərinə ehtiramın rəsmi ifadəsi oldu. Həmin sərəncama əsasən hər il fevralın 26-sı saat 17:00-da bütün ölkə bir dəqiqəlik sükutla Xocalı qurbanlarının xatirəsini yad edir. Beynəlxalq aləmdə Xocalı soyqırımının tanıdılması və ədalətin bərqərar olması yolunda mühüm təşəbbüslərdən biri də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın 2008-ci ildə başladığı "Xocalıya Ədalət!" kampaniyasıdır. Bu hərəkat qısa müddətdə geniş beynəlxalq miqyas aldı və Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasına təkan verdi.

Xocalı həqiqətləri bir çox ölkələrin parlament sənədlərində öz əksini tapmış, dünya ictimaiyyəti bu dəhşətli qırğını soyqırımı kimi tanımağa başlamışdır. Bu günə qədər Bosniya və Herseqovina, Kolumbiya, Çex Respublikası, Honduras, İordaniya, Meksika, Pakistan, Panama, Peru, Sudan, Cibuti, Qvatemala, Paraqvay, Sloveniya, Şotlandiya, İndoneziya və Əfqanıstanın qanunverici orqanları Xocalı soyqırımına dair müvafiq qətnamələr qəbul ediblər. Bu, dünya miqyasında ədalət mübarizəsinin qələbəsidir. Beynəlxalq aləmin Xocalı soyqırımı ilə bağlı prinsipial mövqeyi təkcə parlament qətnamələri ilə məhdudlaşmır. Ədalətin bərqərar olması istiqamətində hüquqi qərarlar da mühüm əhəmiyyət daşıyır. Avropa İnsan Hüquqları Məhkəməsi 22 aprel 2010-cu il tarixli qərarında Xocalıda mülki azərbaycanlı əhaliyə qarşı törədilən vəhşiliyi "müharibə cinayətləri və insanlığa qarşı cinayətlər" kimi qiymətləndirdi. Bu, beynəlxalq hüquq sistemində Xocalı faciəsinə verilən ən mühüm hüquqi qiymətlərdən biridir. Bu gün artıq ABŞ-ın 30-dan çox ştatı Xocalı soyqırımını rəsmən tanıyıb. 2013-cü ildə Qahirədə keçirilən İslam Əməkdaşlıq Təşkilatının Zirvə Konfransında qəbul edilən Yekun Kommünike isə üzv dövlətləri Xocalı faciəsini tanımağa və bu istiqamətdə fəaliyyət göstərməyə çağırdı.

31 il işğal altında qalan bu müqəddəs şəhər 2023-cü ilin sentyabrında azad edildi. Bu, təkcə torpağın düşməndən təmizlənməsi deyildi, eyni zamanda ədalətin bərpası, Xocalı şəhidlərinin ruhunun rahatlıq tapması idi. 2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük Vətən müharibəsi Azərbaycanın tarixi ədaləti bərpa etmək iradəsinin bariz nümunəsi oldu. Azərbaycan xalqı öz lideri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi və bütün dünyaya sübut etdi ki, artıq bu xalq haqqını özü təmin edəcək. Xocalının qisası 2020-ci ildə döyüş meydanında alındı, 2023-cü ilin 19 sentyabrında keçirilən antiterror tədbirləri ilə separatizmin kökü tamamilə kəsildi. Azərbaycan Ordusunun şanlı qələbəsi ilə Xocalı bütövlükdə işğaldan azad edildi və bu qədim yurd yerində üçrəngli bayrağımız yenidən dalğalandı.

Bu gün Xocalı qurbanlarının ruhu şaddır. Onların qanı yerdə qalmadı. İşğalçılar və qatillər ya döyüş meydanında məhv edildi, ya da Bakıya gətirilərək məhkəmə qarşısına çıxarıldı. Xocalıda dinc azərbaycanlılara qarşı vəhşiliklər törədənlər indi ədalət məhkəməsi qarşısında cavab verməyə məcburdurlar. Bakı Hərbi Məhkəməsi onların törətdiyi insanlıq əleyhinə cinayətlərə hüquqi qiymət verəcək. Xocalı azad edildikdən sonra Prezident cənab İlham Əliyevin şəhərə səfəri, orada Azərbaycan bayrağını qaldırması ədalətin qələbəsi idi. Xocalılılar öz doğma yurdlarına qayıdır, şəhərdə genişmiqyaslı bərpa və quruculuq aparılır. Bu gün Xocalı azad şəhər, həm də haqqın təntənəsinin, mübariz ruhun simvoludur.

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**

Respublika .- 2025.- 25 fevral (№ 42).- S.11.